# “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 403-IVQD nömrəli Qanunu) 2-ci maddəsinə aşağıdakı məzmunda onuncu hissə əlavə edilsin:

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 oktyabr 2012-ci il
№ 440-IVQD

Azərbaycan Respublikasının 2012-ci il
16 oktyabr tarixli 444-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

# “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1.** Təltif edilən şəxslər

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı ilə 2013-cü il iyunun 26-dək Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçən və döyüş hazırlığında uğurlar qazanmış zabitlər, gizirlər, miçmanlar və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrindən ehtiyata və ya istefaya buraxılmış, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qurulmasında və möhkəmləndirilməsində fəal iştirak edən zabitlər təltif edilirlər.

**Maddə 2.** Təltif edən orqan

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3.** Taxılma qaydası

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)” Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

Azərbaycan Respublikasının 2012-ci il
16 oktyabr tarixli 444-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

1. “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz təsvir edilmiş ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızılı suya çəkilmiş, dairəvi, diametri 35 mm olan lövhədən ibarətdir.

2. Medalın ön tərəfinin sağında onu yarımdairə şəklində yuxarıdan aşağı iki hissəyə bölən və Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri ilə boyanmış lent təsvir edilmişdir. Lentin fonunun yuxarı hissəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi, aşağı hissəsində isə “95 il” sözləri yazılmış və bu sözlər dəfnə budağı ilə haşiyələnmişdir.

3. Lentin sol tərəfində yuxarıda Ulu Öndər Heydər Əliyevin barelyefi həkk edilmiş, barelyefin altında “1918”, daha aşağıda isə “2013” rəqəmləri yazılmışdır.

4. Medalın ön tərəfinin yuxarısında qövs boyunca “Azərbaycan Respublikası”, aşağısında isə “Silahlı Qüvvələri” sözləri yazılmışdır.

5. Emblem, dəfnə budağı, barelyef, sözlər və rəqəmlər relyeflidir. Gümüşü rəngli qılınclar, ağ rəngli aypara və ulduz, mavi, qırmızı və yaşıl mina ilə örtülmüş lent və ağ mina ilə örtülmüş “95 il” sözləri istisna olmaqla, digər elementlər qızılı rəngdədir.

6. Medalın arxa tərəfinin ortasında “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” sözləri yazılmış və aşağı hissəsində milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Ulduz, aypara, sözlər, ornament relyefli və qızılı rəngdədir.

7. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq 2 mm enində mavi, 10 mm enində qırmızı, mərkəzdə isə 3 mm enində yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir.

8. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçüdə qəlib əlavə olunur.

**"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" Azərbaycan Respublikasının yubiley medalının təsviri**




ARXA TƏRƏF